Yazan
03.09.13 22:46 -

“Dağlıq Qarabağ münaqişəsinin həlli həm Gürcüstan, həm də bütün bölgə üçün vacib məsələlərdən biri olaraq qalır”.

Bu sözləri Gürcüstanın xarici işlər naziri Maya Pancikidze ölkəsinin xaricdəki səfirləri və diplomatik nümayəndəliklərinin rəhbərləri ilə keçirilən toplantıda deyib. O bildirib ki, işğal olunmuş ərazilərdə nəzarətsiz “qara dəliklər” təkcə Gürcüstana yox, bütün Cənubi Qafqaza və Avropa Birliyi ölkələri də daxil olmaqla, qonşu regionlara təhlükə törədir.

M. Pancikidze bir daha bəyan edib ki, Gürcüstanın məqsədi Avropa və Avroatlantik məkana inteqrasiyadır.